*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 399-409*

https://doi.org/10.62837/2025.7.399

**KƏMALƏ OQTAY QIZI BAYRAMOVA Azərbaycan Universiteti**
**mrs.bayramova.kemale@gmail.com**
**Orchid id: 0000-0002-2233-0399**

# AVTOBİOQRAFİZM VƏ ONUN YAZIÇI YARADICILIĞINDAKI ASPEKTLƏRİ

## XÜLASƏ

Məqalədə avtobioqrafizmin nəzəri aspektləri araşdırılır. Qeyd olunur ki, avtobioqrafizm nəzəri ədəbiyyatşünaslıqda az öyrənilən sahələrdən biridir. Avtobioqrafiya bir ədəbi anlayış kimi XXI yüzilin əvvəllərindən geniş şəkldə işlənməyə başlamışdır. Son zamanlarda ayrı-ayrı yazıçıların yaradıcılığında avtobioqrafzm elementlərinin araşdırılmasına həsr edilən məqalə və dissertasiyalar da bunu göstərir. Bu da aydındır ki, avtobioqrafizm son zamanlarda yazıçı yaradıcılığında geniş istifadə olunur. Getdikcə avtobioqrafizmin təzahür formaları artmaqdadır. Araşdırmada tərcümeyi haldan fərqli olaraq bu mətndə onun daxili dünyası, şəxsiyyətinin təhlili, yaşadığı olaylara münasibəti, qarşılaşdığı çətinliklər, qazandığı uğurlar, psixoloji, əxlaqi, yaradıcılıq təkamülü kimi məsələlərə də yer verilir. Avtobioqrafizm və avtobioqrafiya bədii əsərdə bioqrafik situasiyanın sındırılmasına əsaslanan xüsusi bədii hadisə kimi də başa düşülür. Bu halda əsərdə bioqrafiya ilə bədii təxəyyülü ayırmaq lazım gəlir. Azərbaycan ədəbiyyatşünaslığında avtobioqrafizm nəzəri kontekstdə epizodik şəkildə araşdırılıb. Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə, Həmidə xanım Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminli, İlyas Əfəndiyev və başqa yazıçıların yaradıcılığında avtobioqrafizmin müxtəlif təzahür formalarına rast gəlmək mümkündür. Avtobioqrafizmin ən zəngin nümunəsi daha çox mühacirət ədəbiyyatında özünü göstərir. Xüsusilə, Məhəmməd Əsəd bəy və Baninin sənədli və yarımsənədli əsərlərində avtobioqrafizmin müxtəlif formalarına rast gəlmək olar.

**Açar sözlər: avtobioqrafizm, yazıçı, yaradıcılıq, tərcümeyi-hal, aspekt**

Ədəbiyyatşünaslıqda az öyrənilən sahələrdən biri də avtobioqrafizmdir. Baxmayaraq ki, avtobioqrafizmin bədii düşüncədə tarixi çox qədimdir. İndi dünya ədəbiyyatı tarixində ən qədim şairlərin, yazıçıların yaradıcılığında belə avtobioqrafizm elementləri də axtarılır. Lakin avtobioqrafiya bir ədəbi anlayış kimi XXI yüzilin əvvəllərindən geniş şəkldə işlənməyə başlamışdır. Son zamanlarda ayrı-ayrı yazıçıların yaradıcılığında avtobioqrafizm elementlərinin araşdırılmasına həsr edilən məqalə və dissertasiyalar da bunu göstərir. Əvvəlcə avtobioqrafizmin bir termin olaraq semantik mənasına nəzər salaq. Qədim yunan dilində "həyat" və "yazıram" sözlərinin birləşməsindən əmələ gələn "bioqrafiya" sözü tərcümədə həyat

hekayəsi və ya həyatı haqqında məlumat anlamını özündə ehtiva edir. Buraya onun doğum tarixi, yeri, təhsili, peşəsi, məşğuliyyətləri, valideynləri, ailəsi haqqında geniş məlumatlar daxildir. Tərcümeyi haldan fərqli olaraq bu mətndə onun daxili dünyası, şəxsiyyətinin təhlili, yaşadığı olaylara münasibəti, qarşılaşdığı çətinliklər, qazandığı uğurlar, psixoloji, əxlaqi, yaradıcılıq təkamülü və s. verilə bilər. Avtobioqrafizm və avtobioqrafiya bədii əsərdə bioqrafik situasiyanın sındırılmasına əsaslanan xüsusi bədii hadisə kimi də başa düşülür. Bu halda əsərdə bioqrafiya ilə bədii təxəyyülü ayırmaq lazım gəlir. Bəzən isə bunlar iç-içə olar ki, bu zaman onları ayırd etmək üçün müəllif yaradıcılığını, həyatını və psixologiyasını dərindən öyrənmək lazım gəlir. Müəllifin bioqrafiyası dedikdə onu yaradıcılığa sövq edən həyat hadisəsi, tərcümeyi-halında iz qoyan hadisələr nəzərdə tutulur. Bu hadisələr yazıçı yaradıcılığının fonunu təşkil edir. Yazıçı fon kimi bu hadisələri bədii düşüncəyə gətirir və hadisələrin yaradıcı inkişafına daxil edir. Beləliklə bədii reallıqla həyati reallığın sintezi təsviri effektiv edir. Bunu təkcə effektivlik baxımından yox, həm də yazıçı yaradıcılığının xüsusiyyətlərilə müəyyən edilir. Nəticədə əsərdə empirik müəllifin hekayəsi ilə qəhrəmanın hekayəsi arasında yaxınlıq baş verir. Müəllifin dərk edilməsində iki aktual məsələ ortaya çıxır; birincisi, bədii əsərin müəllifi öz tərcümeyi-halı ilə və bədii əsərin subyekti kimi, ikincisi, hadisələri şahidi olduğu bucaqdan dəyərləndirib təqdim edən və yazdığı mətndə mövcud olan, onu bədii bütövlük baxımından təşkil edən obraz. Xalizevin yazdığı kimi: *"Bədii əsərdə mövcud olan müəllif real, bioqrafik olan müəllifin obrazı ilə eyni deyil, lakin onlar şübhəsiz ki, şəxsiyyətin vahid mənəvi əsası ilə bağlıdır. Müəllifin subyektivliyi ilk öncə, əsərin ideya-semantik aspektində ifadə olunur. Bu vəziyyətdə müəllif müəyyən bir ideyanın daşıyıcısı kimi çıxış edir"* (Xalizev,1999: s. 66).

Bədii yaradıcılıq müəllif psixologiyası sferası ilə həmişə təmasda, ayrılmaz şəkildə bir yerdədir. Bu mənada, avtobioqrafizmin tədqiqi kontekstində avtobioqrafik yaddaş və xatirələrin subyektivliyi məsələsi xüsusi əhəmiyyət daşıyır. Bədii mətn özlüyündə həmişə yaradıcılıq prosesinin müəyyən izlərini daşıyır; müəllif öz yaradıcılıq təcrübəsi və prosesindən çıxış edir. M.Baxtin bunu belə qiymətləndirir: *"Rəssamın yaradıcılıq prosesi haqqında deyəcək heç bir sözü yoxdur-o bütünlüklə yaradıcılıq prosesinin içindədir və onun işi ancaq bizi bu yaradıcılıq prosesinə yöməltməkdir"* (Baxtin, 2000: s. 34). Bizə elə gəlir ki, yazıçı da burada eyni prosesi keçirir; sadəcə olaraq, yazıçının ifadə vasitələri söz olduğundan yaradıcılıq prosesinə şəxsi həyatının bəzi elementlərini də daxil edir.

Ancaq avtobioqrafizmlə bağlı aparılan elmi araşdırmaların nəzəri yönünə fikir verdikdə aydın görmək olur ki, tədqiqatçılar bu istiqamətə çox az fikir verirlər. Çox vaxt da avtobioqrafizm termini əsərin müəllifi ilə əlaqə termini kimi qəbul edilir. Belə bir əlaqənin olması təbiidir; bunun mövcudluğunu inkar etmək çətindir. Ancaq bir cəhət nəzərə alınmır ki, hər hansı bir əsər yazılarkən həmin avtobioqrafik elementlər müəyyən transformasiyaya və interpretasiyaya məruz qalır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 399-409*

XX əsrdə bu cür əsərlər daha çox yazılmaqda idi. Xüsusilə, II Dünya Müharibəsi zamanı bir çox yazıçıların yaradıcılığında avtobioqrafizm elementləri geniş yer tutmağa başladı. Ernest Hemenqueyin, Lev Ginzburğun yaradıcılığında bu cür avtobioqrafik elemenli əsərlər yazıldı. Ona görə də avtobioqrafizm *"Avtobioqrafiya çərçivəsində müəllifin həyatının real hadisələrini əksetdirmə üsllu, bədii özünütəfsir forması kimi öyrənilir-bu yanaşma L.Ginzburqun "Psixoloji nəsr haqqında əsəri üçün xarakterikdir* (Kudryaşeva, 2013; s. 12). M.Medariç isə *"...avtobioqrafiya janrının əks-sədasını ifadə edən üslubi cəhətdən işarələnmiş"* (Medariç, 1998: s. 5) üsul şəklində yanaşır. M.Medariç tərəfindən irəli sürülən avtobioqrafizm funksiyalarının özünəməxsus tipologiyası vardır. Bu tipologiya müəllif-mətn-oxucu triadasına əsaslanır. Onun fikrincə, bu triadanı mətnə şamil etdikdə effektiv bir nəticə alınır. Bu effektivliyi aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. Mətnin subyektinin özünü tanıması və özünü ifadə etməsi ilə həyata keçirilən özünüifadə funksiyası.
2. Mətnin strukturunu problemləşdirmə funksiyası. Yəni bədii mətnin şərti dünyasına daxil olan müəllif yaradıcının rolunu önə çəkir, real ilə uydurma münasibətlərin işıqlandırıllmasına xidmət edir.
3. Müəllifin oxucuya müraciəti ilə həyata keçirilən oynaq funksiya. Çox vaxt avtobioqrafiyanın bu funksiyası oxucunun mistifikasiyası mənbəyinə çevrilir.

   Qeyd etmək lazımdır ki, sonuncu funksiya təkcə avtobioqrafizmə aid deyil. Oxucunu mistikləşdirmək üçün yazıçılar çox vaxt bu üsuldan üslub kimi də istifadə edə bilirlər.

Tebeşevskaya Kaçak isə avtobioqrafizmdə *"...əsəri yazıçının öz həyatından faktlarla doldurmaqda, yaşananların psixoloji-analitik şərhələrində yatan xüsusiyyət"* (Tebeşevskaya, 2004: s. 40) kimi görür. Məsələyə ukraynalı iki tədqiqatçının yanaşması bir-birindən fərqlidir. V.Moçernaya görə avtobioqrafiya *"Müəllifin özündən götürdüyü motivlərdə yatan ədəbi vasitələrin məcmusuna çevrilir* (Moçerna, 2005: s. 247). Digər ukraynalı tədqiqatçı V.Aqeyeva bir qədər geniş şərh edir. Onun fikrincə *avtobioqrafizm təkcə avtobioqrafiyalarda deyil, həm də "şəxsi" yazının digər janr variantlarında: avtobioqrafik hekayə, epistolyar gündəlikdə özünü təqdim etmənin bədii formalarını nəzərdə tutur* (Aqeyev, 2003: s. 23). Bəzi tədqiqatçılar isə avtobioqrafiyaya bədii əsər üçün əsas kimi müəllifin şəxsiyyəti ilə bağlı situasiyalardan, faktlardan, mənəvi motivlərdən istifadə etməklə ədəbi alət kimi baxırlar. Burada bir məsələni nəzərdən qaçırmaq olmaz; o da, avtobioqrafik romanda özünə istinad motivlərindən istifadə üsullarıdır. Bəzi araşdırmalarda *sənədli-bədii avtobioqrafiya janrından kənar avtobioqrafiya iki mövqedən öyrənilir; müəllifin bioqrafik şəxsiyyəti ilə ədəbi qəhrəman arasında münasibət* (Çavçanidze, 1997: s.68). Məlumdur ki, hər hansı bir yazıçının yaradıcılıq niyyətləri konkret mətn daxilində üzə çıxır və yalnız bu mətnin poetikasının təhlili zamanı avtobioqrafizmin

mahiyyəti və funksiyalarını nəzəri cəhətdən anlamaq mümkündür. Müəllifin başlanğıcı ilə qəhrəman obrazı arasındakı əlaqəyə, onların əlaqəsini nümayiş etdirmə yollarının tədqiqinə həsr olunmuş əsərlər maraq doğurur. Hər hansı bir əsərdə avtobioqrafik cizgilərin olması mətnin tədqiqi ilə müəyyən edilir. Tədqiqatçılar tərəfindən müəyyən edilən avtobioqrafik xüsusiyyətin özünəməxsus cəhətləri vardır; bunlar qəhrəmana müəllifin özünəməxsus xüsusiyyətlərdən yalnız birini bəxş etmək, onunla mənəvi vəhdəti tamamlamaq, qəhrəmana öz "mən"ini tam etibar etmək.

Məlumdur ki, biqorafik əsərlər informativ-analitik yanaşmanın bədii estetik yanaşma ilə birləşməsi nəticəsində yaranır. Bioqrafik əsərlərə nümunə kimi bioqrafik məktəbin banisi Sent Bövün XVII-XIX əsrlər fransız yazıçıları haqqında 1846-1859-cu illərdə 6 kitabda nəşr etdirdiyi "Ədəbi-tənqidi portretlər" ("Port-Royal"), Fransua Ribado Dümanın "Hitler: insan yoxsa, şeytan?", Azərbaycan ədəbiyyatında Məmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami", Rəfael Hüseynovun "Cavidlər" və s. əsərləri nümunə göstərmək olar. Yuxarıda bəhs etdiyimiz kimi həyatı haqqında əsas məlumatlar xronoloji şəkildə şəxsin özü tərəfindən yazıldıqda bu avtobioqrafiya adlanır. Burada yazıçı öz həyat təcrübəsinin, tərcümeyi-halının kiçik, lakin əhəmiyyətli detallarının, həyatında vacib rol oynamış şəxslər haqqında məlumatların, yaşadığı hadisələrin, dövr haqqında təəssüratlarının müfəssəl bədii təsvirinə yer verir. Ədəbiyyatşünas Şəfəq Dadaşova yazır: "*Avtobioqrafiyalar müəyyən yaşa çatmış müəllifin öz həyatını doğulduğu vaxtdan və ya uşaqlıq illərindən başlayaraq xronoloji ardıcıllıqla, hadisələrə onları təsvir etdiyi zamandan retrospektiv qiymət verməklə, şüurlu və şüuraltı olaraq öz həqiqi şəxsiyyətini və mənsub olduğu mədəniyyəti özü üçün təyin etməyə çalışdığı və özünüidentifikasiya üçün hadisələrə kənardan baxmağa cəhd göstərdiyi bir ədəbi formadır*" [Dadaşova, 2020: 3-4].

Bəzi tədqiqatçılar avtobioqrafiyanın ilk nümunəsi kimi Avqustinin "Etiraflarını" misal çəksələr də, bir qrup araşdırmaçılar modern avtobioqrafiyanın başlanğıcını Roussesaunun "Etiraflar" əsəri ilə əlaqələndirirlər. Huck Gutman hesab edir ki, Avqustinin əsərindəki retrospektiv baxışın məqsədi həyatını təhlil etmək, özünü şərh etmək deyil. Avqustin həyat təcrübəsini dini çağırışlar üçün istifadə edir ki, bu da Gutmana görə avtobioqrafiyanın tələblərinə uyğun gəlmir. "*Avqustinə görə, mənlik bir "nümunə" olaraq söhbətin köməkçisidir. Russoya görə, mənlik diskursun mövzusudur. Onun məqsədi Allahı izzətləndirmək deyil, təpədən dırnağa qədər özünü oxucuya göstərmək, gözünün qabağında üzə çıxarmaq, "ictimai" etmək, özü haqqında həqiqəti bəyan etməkdir*"[Gutman, 1999: s.84].

Avtobioqtafizmlə bağlı bir təzadı burada qeyd etmək istəyirik. Avtobioqrafiyaların yaranma tarixi çox əsrlər öncəyə gedib çıxsa da, janr, problem kimi araşdırılması yaxın vaxtlara təsadüf edir. Son tədqiqatlarda avtobioqrafizmin problem olaraq araşdırılmasını Filipp Löjenin adı ilə bağlayırlar. Hətta ümumi bir düsturu, etalonu olmasa da, məhz onun "Fransada avtobioqrafiya" adlı

monoqrafiyasında (1971) vurğuladığı qeyd tərif kimi götürülür: "*Avtobioqrafiya dedikdə, təhkiyəçinin şəxsi həyatı və şəxsiyyətinin formalaşması tarixi, ən çox əhəmiyyət kəsb edən isə, müəllifin özü barədə retrospektiv hekayəsi nəzərdə tutulur*"[Löjens, 1989: 10].

Avtobioqrafiyaların və memuarların ortaq cəhətləri və sərhədlərinin şəffaf olması çox vaxt bir-birinə çox yanın olan iki janrın qarışıdırlıması ilə nəticələnir. Hər iki janrın ortaq cəhətləri bunlardır:

-hər ikisi müəllifin həyatından bəhs edir

-hər ikisi müəllif tərəfindən yazılır (adətən)

-hər ikisində əsas cəhət retrospektivlikdir

-hər iksinində müəllifin həyatında rol oynayan hadisələr və şəxslərdən söhbət açılır

-hər ikisi adətən müəllifin həyatının ilk illərindən etibarən uzun bir müddəti əhatə edir və s.

Bəzi müəlliflər memuar janrının avtobioqrafiya janrından fərqləndirən zaman memuarın daha qısa zaman kəsiyi ilə bağlı olduğunu, avtobioqrafiyaların isə müəllifin bütöv həyatını əhatə etdiyini qeyd edirlər. Həm də memuarların müəllifin həyatının daha ahıl çağlarında yazılması janrlar arasındakı müxtəlifliklərdən biri hesab edilir. Avtobioqrafiyaların da yazılması üçün müəyyən yaşantıların olması tələbi bu fərqi minimuma salır. Aydındır ki, memuarı və ya avtobioqrafiyanı qələmə almağa hazırlaşan şəxsin oxucuya çatdırmaq istədiyi (oxucunun bilmədiyi, və ya müəllif tərəfindən bilməli olduğuna inanılan) hansısa hadisələr yaşanılıb. Bir qisim tədqiqatçı memuar və avtobioqrafiyanın fərqli cəhəti kimi avtobioqrafiyanın konkret sənədliliyə, memuarların müəllif yaddaşına əsaslanmasını səbəb kimi irəli sürürlər. Memuralarda hadisələr faktlardan daha çox müəllifin xatırladığı formada təqdim edilir.

Araşdırmaların bir hissəsində qeyd edilir ki, ədəbi janr hesab edilsə də avtobioqrafiyalar əsasən publisistik üslubda qələmə alınır, burada bədiilik ya çox azdır, ya da ümumiyyətlə yoxdur. Ədəbiyyatşünas-tənqidçi Əziz Mirəhmədov tərtib etdiyi "*Ensiklopedik lüğətdə memuar ədəbiyyatını bu cür izah edir: Konkret mənada isə memuar ədəbiyyatına o əsərlər daxil olur ki, onlarda sənətin ayrıca bir növü kimi müəlliflər həyatı obrazlı şəkildə əks etdirirlər*" [Mirəhmədov, 1998: 124].

Tərcümeyi-halla sıx bağlı olan və tez-tez onunla qarışdırılan memuarın xarici hadisələrə vurğunun dərəcəsinə görə fərqləndiyi qənaəti var: Lakin qeyd edilməlidir ki, tərcümeyi-halını, maraqlı taleyini oxucusu ilə bölüşmək qərarına gələn bir çox müəlliflərin qələmə aldığı əsərlərdə dəqiq tarixlərə yer verməklə yanaşı bədii üslubdan da geniş şəkildə istifadə edirlər. Və beləliklə, iki janr üslub və növ baxımından bir birinə qarışır. Bu səbəbdən də eyni əsər bəzi tədqiqat işlərində avtobioqrafik roman, bəzi mənbələrdə memuar roman, digər qisim araşdırmalarda avtobioqrafiya kimi qeyd edilir. Məsələn, professor Abid Tahirli "Qafqaz "fərəsi"nin Paris macəraları adlı *məqaləsində Baninin məşhur "Qafqaz günləri"əsərini avtobioqrafik roman adı ilə təhlil edir* [Tahirli, 2022: s. 18]. Publisist Azad

Qaradərili "Sözün mühacirəti" adlı məqaləsində eyni *əsərdən bəhs edən zaman "memuar roman" ifadəsindən istifadə edir* [Qaradərəli, 2015:]. Həmçinin, Nailə Səmədovanın "Cəlil Məmmədquluzadənin xatirələri Azərbaycan memuar ədəbiyyatının klassik nümunəsi kimi" məqaləsində memuar nümunəsi kimi təhlil olunan "Xatiratım" əsəri [Səmədova, 2019:] wikipediya axtarış sistemində avtobioqrafiya sözünün izahı üçün nümunə kimi təqdim edilir. Qeyd etmək lazımdır ki, bu iki janr arasındakı təsnifatın düzgün aparılması, fərqlərin diaqnostikası üçün ədəbiyyatımızda bir sıra sanballı tədqiqat əsərləri yazılmışdır. Bu əsərlərdən biri Nailə Səmədovanın "Azərbaycan memuar ədəbiyyatının yaranması, təşəkkülü və inkişaf mərhələləri" adlı monoqrafiyasıdır. O, memuar janrının üslub və xüsusiyyətlərini digər janrlardan fərqləndirərkən yazır: *"Çox vaxt avtobioqrafik əsərlərlə memuar əsərlərini qarışdırırlar. Tanınmış adamların öz həyat və fəaliyyətini ədəbi üslubda qələmə alması avtobioqrafiya adlanır. Avtobioqrafik roman və povestlərdə surətlərin ad və soyadları demək olar ki, həmişə başqası ilə əvəz edilir"*[Səmədova, 2011: s.12]. Bu nəticədən belə qənaətə gəlmək olar ki, bizim yuxarıda adını çəkdiyimiz "Qafqaz günləri" və "Xatiratım" əsərlərinin hər ikisini memuar adlandırmaq daha doğru olar. Avtobioqrafiya və memuardan fərqlənən avtobioqrafik romanların mahiyyətini açmaq üçün "avtobioqrafizm" və "avtobioqrafik qəhrəman" anlayışlarının fərqli izahlarını ümumiləşdirmək lazım gəlir. Bəllidir ki, hər bir ədib yaradıcılığında şəxsi təcrübəsinə əsaslanır və bir çox qəhrəmanın timsalında şəxsi fikirlərinə, maraqlarına, emosionallığına yer verir. Yardıcılıq həmişə müəllif şəxsiyyətinin izlərini daşıyır. Lakin bu təkbaşına avtobioqrafizm kimi dəyərləndirilə bilməz. M.Medariç "Avtobioqrafiya, avtobioqrafizm, avtointerpretasiya" məqaləsində *"Avtobioqrafizm tərcümeyi-hal janrının əks-sədasını vurğulayan ədəbi üslubdur. O özlüyündə tərcümeyi-hal olmayan, avtobioqrafiya kimi yazılmayan və qəbul edilməyən mətnlərdə görünür"* [Medariç, 1998: s.5].

Avtobioqrafiyanın dəqiq faktlardan istifadə ilə tərtib olunması onu avtobioqrafizmdən fərqləndirən ən xarakterik cəhətidir. Avtobioqrafiya ədəbiyyatın bir janrı kimi dəyərləndirilir, avtobioqrafizm isə bir element, cəhət kimi özünü nəsr əsərlərində, şeirlərdə, filmlərdə və s. göstərə bilir. Avtobioqrafik əsər müəllifin həyat faktlarından istifadə edilməklə yaranır, lakin burada faktın olduğu kimi qeyd edilməsi tələb edilmir. Avtobioqrafik əsərin süjetinə aid hadisələrdə müəllif həyatının izləri yüksək və ya zəif səviyyədə görünür, lakin problemin bədii həllini vermək naminə bəzi dəyişikliklərdən istifadə edilir. Müəllif öz həyatını (ya da onun müəyyən bir hissəsini) təxəyyülün gücündən istifadə etməklə bədii qəhrəmanın həyatında göstərir. Əsərin avtobioqrafik təbiətinin miqyası müəllifin bədii qəhrəmana xarakterik xüsusiyyətlərindən birini köçürməsi ya da müəllifin şəxsi "mən"i ilə bədii qəhrəmanın şəxsiyyətinin bütöv şəkildə paralellik təşkil etməsinə görə dəyişir.

Deməli, avtobioqrafizm əsərin müəllifinin şəxsi həyatının elementlərini, təcrübələrini və xatirələrini mətnə daxil edərək onları süjetin, xarakter obrazlarının

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 399-409*

və ya mövzunun bir hissəsinə çevirdiyi bədii texnika və ya tendensiyadır. Vladimir Nabokov və Yuri Trifonuvun əsərlərində bu cür ədəbi təcrübədən geniş istifadə olunub. B.V.Averinin V.Nabokov yaradıcılığı üzrə apardığı araşdırmalara görə *"...yazıçı öz həyatı ilə bağlı mürəkkəb və qəribə eksperimentlər edərək onu başqa bir adamın üzərinə uğurla köçürə bilmişdir"* (Averin, 2003, s. 334). Tədqiqatçının araşdırmalarına görə Y.Trifonovun "Qoca", "Zaman və yer" əsərlərində də bu cür eksperimaentlər həyata keçirilmişdir. Yazıçının avtobioqrafik əsər yazmasının müxtəlif səbəbləri ola bilər. Müəllifin hazırkı məqama gəlib çatana qədərki həyat yolunu, yaxud yaşanmış hadisələr haqqında heç kimlə bölüşmədiyi şəxsi görüşlərini bədiiləşdirmək istəyi, introspeksiya vasitəsilə həyat təcrübələrinə oxucu gözü ilə baxmaq istəyi, gözlənilən hansısa ittihamlardan qaçınmaqla mübahisəli mövzular haqqında geniş kütləyə məlumat vermək və s.

İndiki zamanda avtobioqrafiya, avtobioqrafizm və avtointerpretasiya o qədər bir-birilə çulğaşıb ki, onları bəzən bir-birindən ayırmaq belə çətin olur. Bir çox əsərlərdə avtobioqrafiya müəllifin özünü təmsil etməsinə imkan verən ədəbi bir priyom, üsul kimi də istifadə olunur. Nəticədə avtobioqrafizm həm avtobioqrafik əsərlərdə, həm də avtobioqrafik olmayan əsərlərdə bu və ya digər şəkildə təzühür edir. Xüsusilə, bədii əsərlərdə avtobioqrafizm psixoloji motivlərin, situasiyaların və ya müəllifin həyat faktlarının mətnə daxil edilməsində özünü göstərir. Avtobioqrafiya və daha geniş mənada avtobioqrafik əsərlər çərçivəsində avtobioqrafizmin avtointerpretasiya forması özünü təsvir və ya özünü dərketmənin bədii üsulu kimi də düşünmək mümkündür. Ədəbiyyatşünas S.Pavlovava çağdaş ədəbiyyatda avtobioqrafizmin nəzəri aspektlərini araşdırarkən belə bir elmi qənaətə gəlir: *"Avtofiksasiya kimi təsnif edilən əsərlər fakt və uydurma arasındakı sərhədlərin şəffaflığı ilə xarakterizə olunur. Fransız ədəbiyyatşünaslığında oxucu və tədqiqatçının bu elementləri bir-birindən ayırmağa çalışmalı, yoxsa birlikdə nəzərdən keçirməli olduğu barədə müzakirələr aparılır. Həm birinci, həm də ikinci yanaşmanın tərəfdarları həmfikirdirlər ki, ədəbi hadisə kimi avtofiksasiya hələ öz nəzəri anlayışını almamış, oxucu şüurunda özünəməxsus işarələmə xüsusiyyətlərini, aydın hermenevtik kodunu inkişaf etdirməmişdir"* (Pavlova, 2019: s. 12). Bəzi tədqiqatçılar tərəfindən avtobioqrafizm xüsusi izahat olmadan müəllifin öz "mən"inin şərhi üsulu kimi də qiymətləndirilir. V.Aqeyeva bu anlayışdan xüsusi nəzəri anlayış kimi deyil, *avtobioqrafik və bədii əsərləri fərqləndirmək üçün istifadə edir* (Aqeyeva, 2003: s. 76). Avtobioqrafizm terminini "şəxsi ədəbiyyat" formaları ilə sıx əlaqədə nəzərdən keçirənlər də vardır. A.Kudryaşova avtobioqrafiyanın yazıçı yaradıcılığında təzahüründən bəhs edərkən belə bir qənaətə gəlir: *"Avtobioqrafiya müəllifin "həyat materialını" öz ekzistensial sferası, onun emosional kompleksi və insana baxışı istiqamətində çevirməsidir; ədəbi-bədii əsərdə avtobioqrafizmin belə başa düşülməsi povestin avtobioqrafik əsasını göstərən nitq subyekti tərəfindən həyata keçirilir, avtobioqrafiyada müəllifin avtobioqrafik forması kimi qəbul edilir,*

*oynayır"* (Kudryaşova, 2013: s. 102). M.Medariç isə avtobioqrafizmlə bağlı araşdırmalarında belə bir qənaətə gəlir ki: *"Avtobioqrafizmdən, avtobioqrafiya janrından kənarda, əsasən, müəllif, rəvayətçi və xarakter arasında oxşarlıqların olması şəraitində danışmaq olar"* (Medariç, 1998: s. 9). M.Medariç avtobioqrafik qurğunun bəzi əlamətlərini də müəyyən etməyə çalışır. Məsələn, müəllifin öz adını göstərməsi. Buna nümunə olaraq "Faciələr. V.Mayakovski" əsərini göstərir. Bu əsərdə bəzi detallara da gedir; məsələn, şeirdə Lilya Brikin telefon nömrəsini göstərməsi. Bəzən isə müəllif şüurlu şəkildə özünü əsərdə olan qəhrəmanların dünyasına yaxın göstərir, yəni öz əsl adı ilə qəhrəmanın başına gələnləri təhkiyə edir. Müəllif və qəhrəmanın bu zaman zövqü, dünyabaxışı, hər hansı bir hadisəyə münasibəti də üst-üstə düşür. Bu zaman *"Qəhrəmanın hekayəsinə qəsdən və ya bilərəkdən daxil edilmiş "xarici" tərcümeyi hal elementi "daxili" tərcümeyi halına-müəllifin özünün romantik variantında özünü ifadə etməsinə xüsusi effekt verir"* (Çavçanidze, 1997: s. 61).

Azərbaycan ədəbiyyatşünaslığında avtobioqrafizm nəzəri kontekstdə epizodik şəkildə araşdırılıb. Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə, Həmidə xanım Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminli, İlyas Əfəndiyev və başqa yazıçıların yaradıcılığında avtobioqrafizmin müxtəlif təzahür formalarına rast gəlmək mümkündür. Avtobioqrafizmin ən zəngin nümunəsi daha çox mühacirət ədəbiyyatında özünü göstərir. Xüsusilə, Məhəmməd Əsəd bəy və Baninin sənədli və yarımsənədli əsərlərində avtobioqrafizmin müxtəlif formalarına rast gəlmək olar. Sovet dövrü Azərbaycan ədəbiyyatında bu formaya çox az-az yazıçılar müraciət etmişdir. Bu yazıçılardan biri müxtəlif hekayə, povest və romanlarında yaşadığı taleni avtobioqrafik şəkildə qələmə alan yazıçı Süleyman Vəliyevdir. Süleyman Vəliyev bir yazıçı kimi avtobioqrafizmin zəngin təzahür formalarından istifadə etmişdir. Yaradıcılığa yeni başlayarkən bu xüsusiyyət əgər həyat həqiqətinə sadiq qalmaq prinsipindən irəli gəlmişsə, sonrakı mərhələlərdə başına gələn hadisələrin müxtəlifliyindən doğmuşdu. Bu hadisələrin hər biri şəxsi təcrübə kontekstində bir yazıçı üçün yaşadıqlarını bədii interpretasyaya çevirməyə kifayət edərdi. Bununla yazıçı təkcə başına gələn hadisələri bədii mətnə inteqrasiya etmir, həm də tarixin, cəmiyyətin yaddaşını yaşadır.

## Ədəbiyyat

1. Агеева В. Жшочий простр: Фемшютичний дискурс украшсько-го модершзму. - К.: Факт, 2003. - 320 с.
2. Аверин Б.В. Дар Мнемозину: Романы Набокова в контексте русской автобиографической традиции.-СПБ: Амфора, 2003. -399 с.

3. Бахтин М.М. Автор и герой в эстетической деятельности // Бахтин М.М. Автор и герой. К философским основам гуманитарных наук. СПб., 2000. С. 34-35.
4. Dadaşova Ş.N. Ədəbi avtobioqrafiyanın nəzəriyyəsi və tipologiyası:/ elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı./ -Bakı, 2020. -53 s.
5. Gutman, H. Bir Benlik Teknolojisi: Rousseau'nun İtirafları. Kendini Bilmek. (Çeviren: Gül Çağalı Güven) / H.Gutman. -İstanbul: Om Yayınevi. -1999. -102.
6. Qaradərili, A. Sözün mühacirəti: [elektron resurs] / sənət.az. -2015. 4 aprel. https://senet.az/bloq/sozun-muhacireti-464
7. Кудряшова, А. Теоретические основы жанра в русской автобиографической прозе. М., 2013
8. Lejeune, Ph. On autobiography / Ph. Lejeune. -Minneapolis: University of Minnesota Press, Theory and history of literature. Vol. 52. -1989. -289 p.
9. Медарич М. Автобиография/автобиографизм // Автоинтерпретация / Под ред. А. Б. Муратова и Л. А. Иезуитовой. - СПб.: Изд-во С.-Петербургского ун-та, 1998. - С. 5-32.
10. Мочерна В. Маргшальний автобіографізм у чеськш лгтературк Богумш Грабал та Йозеф Шкворецький // Проблеми слов'янознав-ства. 2005. Вип. 55. С.246-253. Режим доступа: http://www.lnu.edu.ua/ slavistyka/n55/022.pdf
11. Mirəhmədov, Ə.M. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət / Ə.M. Mirəhmədov -Bakı: Azərbaycan Ensiklopediyası Nəşriyyat - Poliqrafiya birliyi. -1998. -240 s.
12. Səmədova, N.Ə. Cəlil Məmmədquluzadənin xatirələri Azərbaycan memuar ədəbiyyatının klassik nümunəsi kimi:[elektron resurs] / Azərtac. -2019. 2 iyul. https://azertag.az/xeber/celil_memmedquluzadenin_xatireleri_azerbaycan_memuar_edebiyyatinin_klassik_numunesi_kimi-1301340
13. Səmədova, N.Ə. Azərbaycan memuar ədəbiyyatının yaranması, təşəkkülü və inkişaf mərhələləri / filologiya üzrə elmlər doktoru, dis. avtoreferatı. / - Bakı, 2011. -46 s
14. Tahirli, A. Qafqaz "fərəsi"nin Paris macəraları // 525-ci qəzet. - 2022. 19 noyabr. -s.18-19.
15. Хализев В.Е. Автор и его присутствие в произведении // Теория литературы. –Москва; Высшее оброзование. 1999. -426 с.
16. Павлова, С. (Автобиографизм в мемуарах французских аристократов второй половины XVII века. М., 2019
17. Чавчанидзе Д. Л. Автобиографизм поздних немецких романтиков // От барокко до постмодернизма. - Днепропетровск: ДГУ, 1997. - С. 59-67.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 399-409*

**Bayramova Kamala Oqtay**

## AUTOBİOGRAPHİSM AND İTS ASPECTS İN THE WRITER`S WORK

**Keywords: autobiographism, writer, creativity, biography, aspect**

**Summary**

The article examines the theoretical aspects of autobiographism. It is noted that autobiographism is one of the least studied areas in theoretical literary criticism. Autobiography as a literary concept has begun to be widely used since the beginning of the 21st century. Articles and dissertations recently devoted to the study of autobiography elements in the work of individual writers also show this. It is also clear that lately, autobiographism has been widely used in the writer's work. The forms of manifestation of autobiographism are gradually increasing. Unlike the biography, the study also includes issues such as the inner world, analysis of the personality, attitude to the events he experienced, difficulties he encountered, successes he achieved, psychological, moral, and creative evolution in this text. Autobiographism and autobiography are also understood as a special artistic event based on the breakdown of the biographical situation in a work of art. In this case, it is necessary to distinguish between biography and artistic imagination in the work. In Azerbaijani literary criticism, autobiographism has been studied episodically in a theoretical context. It is possible to find various forms of autobiographisms in the works of Mammad Said Ordubadi, Jalil Mammadguluzade, Hamida Khanum Mammadguluzade, Yusif Vazir Chamanzaminli, Ilyas Efendiyev and other writers. The richest example of autobiographim is more evident in emigration literature. In particular, various forms of autobiography can be found in the documentary and semi-documentary works of Mahammad Asad bey and Bani.

**Байрамова Камала Огтай**

## АВТОБИОГРАФИЯ И ЕЕ АСПЕКТЫ В ТВОРЧЕСТВЕ ПИСАТЕЛЬЯ

**Ключевые слова: автобиографизм, писатель, творчество, биография, аспект**

**РЕЗЮМЕ**

В статье рассматриваются теоретические аспекты автобиографии. Отмечается, что автобиография – одно из наименее изученных направлений в теоретической литературной критике. Автобиография как литературоведческий концепт получил широкое распространение с начала XXI века. Об этом свидетельствуют и недавние статьи и диссертации, посвященные изучению элементов автобиографии в творчестве отдельных писателей. Также очевидно,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 399-409*

что в последнее время автобиография широко используется в творчестве писателей. Формы проявления автобиографии расширяются. В исследовании, в отличие от биографии, этот текст включает в себя такие вопросы, как внутренний мир автора, анализ его личности, отношение к пережитым событиям, трудности, с которыми он столкнулся, достигнутые успехи, психологическую, нравственную и творческую эволюцию. Автобиография и автобиография также понимаются как особое художественное событие, основанное на осмыслении биографической ситуации в художественном произведении. При этом необходимо различать биографию и художественный образ в произведении.В азербайджанском литературоведении автобиография изучалась эпизодически в теоретическом контексте. Различные формы автобиографии можно найти в произведениях Мамед Саида Ордубади, Джалила Мамедгулузаде, Гамиды ханум Мамедгулузаде, Юсифа Везира Чеменземинли, Ильяса Эфендиева и других писателей. Наиболее богатые образцы автобиографии представлены в литературе эмигрантского периода. В частности, различные формы автобиографии можно найти в документальных и полудокументальных произведениях Мухаммеда Асад бека и Бани.

**Rəyçi: f.e.d., prof. Bədirxan Əhmədov**